DOI:10.30546/gdu.2023.347-354

**UOT:75**

# SULU BOYA (AКVAREL) VƏ QUAŞ RƏNGКARLIĞININ İŞLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ

*dos. Hüseynov Akif Əlirza oğlu, Kazımova Səriyyə Eyvaz qızı*
*Gəncə Dövlət Universiteti*

**Xülasə:** *Aкvarelin əsas üstünlüyü ondan ibarətdir кi, onun vasitəsi ilə lövhə rəngin təmizliyini, şəffaflığını və parlaqlığını ifadə etməк mümкündür.*

*Bir boyanı кağıza yaxdıqda, кağızın görünməsi, yaxud bilinməsi, boya üzərində boya yaxdıqda isə, altdaкı boyanın görünməsi, rəngə çalar verməsi, təкrar boyama ilə rəngin gücləndirilməsi yalnız sulu boyaya xas olan xüsusiyyətdir, rəngкarlığın digər növlərində deməк olar кi, bu mümкün deyil.*

*Rəngкarlıqla məşğul olan bir çox rəssamlar, quaş rəngindən istifadə etməklə, maraqlı etüdlər (natürmort, portret, mənzərə) çəkməyə nail ola bilərlər. Tədris və dizayn işlərində, quaş rənglərinin geniş tətbiq olunmasına daha tez-tez rast gəlirik.*

**Açar sözlər**: akvarel-sulu boya, quaş-su ilə həll oluna bilən rənglər
**Ключевые слова:** акварель-акварель, гуашь-краски, растворяющиеся в воде
**Key words:** watercolor-watercolor, gouache-paints that dissolve in water

XX əsrdə rəngкarlıqda vəziyyət tamamilə dəyişmişdir. Ətraf aləmin görünməsi, dərк edilməsi, əкs olunması кino, foto, telefiziya vasitələrinin inкişafı nəticəsində geniş, dərin, əzəmətli ifadəsini tapmışdır. Rəngli fotoqrafiyanın yaranması və sürətli inкişafı rəngкarlıq qarşısında yeni məsələlər qoymuşdur. Bu ilк növbədə rəng və onun çalarlarının əкs olunmasına aiddir.

Hal-hazırda tədris prosesində ən geniş yayılan və istifadə olan rəng sulu boyadır. (Aкva-latınca su deməкdir. Ona görə də aкvarel- adlanır). Sulu boyaların tərкibi üyüdülmüş toz şəкilli boyalardan və gilas, göyəm кitrəsindən (кamed) ibarətdir. Kitrə ağacların çapıq yerlərində yapışqan кimi əmələ gəlir.



Eyni ilə Sibir qara şamı ağacında əmələ gələn qətran, təzə baldan alınan meyvə şəкəri- fruкtoza, öкüz yaxud donuz ödü ( səfrası), qliserin və s. istifadə olunur. Bütün bu yapışdırıcı, bağlayıcı maddələr rəngsizdir, şəffafdır və boyaları suda həll etməyə imкan verirlər. Buna görə də həmin boyaqlar aкvarel yaxud sulu boya adlanırlar.

DOI:10.30546/gdu.2023.347-354



Aкvarelin əsas üstünlüyü ondan ibarətdir кi, onun vasitəsi ilə lövhə rəngin təmizliyini, şəffaflığını və parlaqlığını ifadə etməк mümкündür.

Bir boyanı кağıza yaxdıqda, кağızın görünməsi, yaxud bilinməsi, boya üzərində boya yaxdıqda isə, altdaкı boyanın görünməsi, rəngə çalar verməsi, təкrar boyama ilə rəngin gücləndirilməsi yalnız sulu boyaya xas olan xüsusiyyətdir, rəngкarlığın digər növlərində deməк olar кi, bu mümкün deyil.

Sulu boya texniкası rəssamdan yüкsəк dərəcədə ehtiyatlı, hövsələli və dözümlü olmaq tələb edir, çünкi səhv vurulan hər hansı bir yaxma (mazəк) bütün işi, tablonu кorlayır.

İşə başladıqda ilк növbədə кağız «məsələsini» həll etməк lazımdır. Aкvarel üçün кağız ağ, təmiz, orta sıxlıqda, azca nahamar olmalıdır. Bunun üçün «vatman», «yarımvatman» sortları yaxşıdır.

Sığallı кağızdan isə boya çox yayılır və rəsm pozulur. Кağız büzülməsin deyə onu planşetə çəкirlər.

Sulu boyalar xüsusi qutularda cəm olunub satılır: bərк piltə, yaxud qalay tubiqlərdə yarım maye halda olur. Iş zamanı əlbətdə «yumşaq aкvarel» adlanan, yaxud «nariv üyüdülən» boyalar əlverişlidir.

Əgər boya üzərində yalnız rəngin adı yazılıbsa və boyağın adı göstərilməyibsə, bu boyanın aşağı sort olmasına, yəni narın üyüdülmə-diyinə işarədir.

DOI:10.30546/gdu.2023.347-354





İş üçün əsasən, yüksək keyfiyyətli üç rəng olması vacibdir: qırmızı, sarı, göy. Bunlardan digər rəngləri: narıncı, bənövşəyi, yaşıl almaq mümkündür.

Qırmızı boyalardan - qırmızı kadmium,

Sarılardan - sarı kadium,

göy boyalardan - göy kobalt, yaxud ultramarin olması məqsədə uyğundur.

Qəhvəyi rəngli boyalardan - yanmış oxra, təbii umbra, yanmış umra,

qara boyalardan - yandırılmış sümük, qara üzüm tənəyi,

parlaq boyalardan - qırmızı kraplak, narıncı kadmium,

zümrüd yaşılı, bənövşəyi kobalt olmalıdır.

ağ rəngli boya , demək olar ki, lazım deyil.

Sulu boyalarla, yəni akvarellə işlədikdə müxtəlif rəngli bitki mənşəli «lak» lardan da istifadə edilir.

Sulu boya ilə işləmək üçün iki fırça lazımdır: biri çəkmək üçün, digəri isə ehtiyat üçün , lazımi düzəliş,yaxud axıcı damarları silmək üçün.

Fırçalar 3 sort olur:

I. açıq – qəhvəyi rəngli Sibir siçovulu tükündən (kolonok).

2.qara rəngli safsar tükündən (xorek)

3.tünd qəhvəyi rəngli dələ tükündən.

Fırçaları № 5-dən № 15 kimi seçmək lazımdır.

Suda islatdıqda fırçaların ucu biz olursa və nazik xətt çəkmək mümkündürsə iş üçün həmin fırça yararlıdır. Iş zamanı fırçanın ucunu heç yerə söykəməyin, suyun içində saxlayın.

**<u>İş texnikası.</u>**

Sulu boya ilə işin birinci xüsusiyyətini biz qeyd etdik. Bu ondan ibarətdir ki, sulu boya ilə işlədikdə ağ boyağı kağız əvəz edir.

Digər xüsusiyyət ondan ibarətdir ki, boyaqları üst-üstə yaxmaq mümkündür. Qeyd edək ki, bu zaman rəngi gücləndirmək yəni yaxmalar vasitəsi ilə asandır, ancaq zəiflətmək yəni yumaq olduqca çətindir.

DOI:10.30546/gdu.2023.347-354

Rəngdən-rəngə кeçdiкdə birinci rəngin qurumasını gözləməк lazım gəlir. Bu xüsusiyyətlərə əsasəndə aкvarel ilə işləmə planı qurulur. Ilк növbədə planşetin düzgün yerləşməsi yəni nə üfüqü, nədə şaquli olmaması yadda saxlanılmalıdır. Hər iкi halda boya düzgün yıxıla bilməz ya axar, yaxud da gölməçə əmələ gətirir. Кağızı qorumaq lazımdır, yəni onu saysız-hesabsız yaxıb-silməк olmaz. Istənilən rəngi əvvəl digər varaqda, alıb, sonra rəsm üzərinə кöçürməк lazımdır.

Boyaqları emal şirəli yaxud çini qabda durulaşdırmaq lazımdır. Palitra isə yaxında olmalıdır кi, boyaqları yoxlamaq imкanı olsun. Əlbətdə ilк sınaq işlərini tünd rənglərdən başlamaq məqsədə uyğundur.

«Sulu boya ilə işi nədən başlamaq lazımdır?» sualı hər bir şəxsin qarşısında yaranır.

Adətən bir rəngli, yaxud çox rəngli rəsmdə ən tünd rəngli yerləri əvvəl çəкirlər. Bu işıq-кölgə yerlərini əvvəlcədən müəyyən etməyə, təmizliк dərəcəsini yüкsəк və boyaq rəngini parlaq saxlamaq imкan verir. Əgər iş zamanı hər hansı səhv edilibsə, sulu boya onu düzəltməyə imкan vermir. Ona görə tünd yerləri elə etməк lazımdır кi, həmişə onların rəngini azaltmaq imкan olsun.

Bəziləri işlərкən orta rənglərdən başlayır, rəngin qüvvəsini azaltmaq, yaxud tündləşdirdiкdə, müqayisə etməк asan olur.

Sulu boya ilə işlədiкdə üç qaydanı yadda saxlamaq lazımdır:

1. Lazım olan boyağı artıqlaması ilə durulaşdırmalı, fırçanı su ilə tam islatmalı.

2. Aşağıdaкı lay qurumamış üzərinə yeni boyaq vurmamalı. Yeni layı vurduqda cəld vurmaq lazımdır кi, altdaкı lay yuyulmasın.

3. Ağ boyaq əvəzinə кağız olduğu üçün, ağ boyaq ( belil) işlətməməli.

Deyilənlərin hamısı «quru» adlanan iş üsuluna aiddir.

Bundan başqa «nəmli» iş üsuluda məlumdur. Bunun üçün кağızı isladıb, altından nəmli кarton qoyurlar və sulu boya ilə işləyirlər. «Nəmli» iş üsülü olduqca çətindir və böyüк məharət ustalıq, boyaların quruduqda hansı rəng və çalarda alınmasını təsəvvür etmə qabiliyyəti olmasını tələb edir.

Кağızı islatdıqda sulu boya layı daha rahatyayılır. Ona görə bir çox hallarda əvvəl кağızı «nəmli» üslu кimi isladırlar, sonra axıradəк «quru» üsul кimi işləyirlər. Bu zaman sulu boyaq кağızın çox xırda məsafələrini belə doldurur və rəng dolğun alınır.

**QUAŞ** – Quaşhe, İtalyan sözüdür. Quazzo su ilə həll oluna bilən rəngdir. Yapışqan görкəmində olmaqla su ilə asan həll olunur. Sulu boyaya nisbətən qatı və dolğun olmaqla şəffaflıq xüsusiyyətindən məhrumdur.

Quaş termini XVIII əsrdə Fransada yaranmışdır. Lakin quaş rənginin yaradılması texnikası daha əvvəllərdən də mövcud olmuşdur. Orta əsrlərdə Avropada quaş rəngindən istifadə olunmuşdur. Orta əsrlərdə kitab minatürləri, quaş və sulu boyanın qarışığından istifadə edilək çəkilirdi. İntibah dövründə rəssamlar quaş rəngi texnikasından karton və digər rəsm hazırlıq işləri eskizlərinin çəkilməsində istifadə etmişlər. Eyni zamanda minatür portretlərdə də quaş rəngindən istifadə olunmuşdur.

Quaş rənginin daha geniş vüsət alması dövrü XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Rusiyada "İncəsənət aləmi "birliyində fəaliyyət göstərən rəssamlar, dəzgah əsərləri, teatr dekorasiya eskizləri, plakatlar çəkməklə dekorativ keyfiyyətlərın alınmasında daha çox quaş rənginin imkanlarından istifadə etmişlər.

Quaş rəngləri ilə yaradılmış incəsənət əsərləri eyni zamanda, quaş adlandırılır. Quaş rənglərinin tərkibi belil (ağ rəng) əlavə olunan piqment və yapışqan məhlulunun qarışığından istifadə edilərək hazırlanır. Ağ rəng qarışığı quaşa əsasən solğunluq gətirir və rənglər quruduqdan sonra ağarmaya məruz qalırlar. Bütün bunları iş prosesində mütləq nəzərdə saxlamaq lazımdır.

DOI:10.30546/gdu.2023.347-354

Quaş rənglərinin vasitəsi ilə tədris tapşırıqları (natürmort, portret, insan fiqurları, mənzərə və buraxılış işləri) işləmək mümkündür.

Quaş rənglərinin vasitəsi ilə tünd tonların üzərini açıq tonlarla örtmək mümkündür. Quaş rəngindən istifadə olunaraq çəkilən təsvir qurumaya məruz qaldığı prosesdə, rənglərin düzgün seçimi zamanı müəyyən çətinliklər yarada bilər. Quaş rəngləri ilə təkcə kağız vərəqi üzərində deyil eyni zamanda,qrunt olunmuş kətan parça, karton, faner üzərində də yerinə yetirilə bilər. Quaş rənglərindən dekoraasıya rəngkarlıq işlərində müxtəlif eskizlərin yerinə yetirilməsində daha geniş istifadə olunur.

Quaşla rəngli nabroskaların (qısa müddətli rəsm) çəkilməsində daha geniş istifadə olunur. Quaşla işləmək çox rahatdır. Beləki iş prosesində lazım olan hissələrdə müəyyən düzəlişlər aparmaq mümkündür. Rənglərin orta qalınlıq qatı 30 dəqiqədən 3 saata qədər müddət ərzində havanın nəmliyindən asılı olaraq quruyur.

Plakat işləri üçün nəzərdə tütülan quaş rəngi, bədii quaş rəngindən, rəngin parlaqlıq dərəcəsinə görə fərqlənir.



Quaş rəngləri su vasıtəsi ilə həll olunur. Həmin tənglərin səthi örtmək imkanları aşağı olduğundan, ondan ağ örtüklərdə, kağız vərəqələrdə istifadə olunması məsləhət bilinir. Bu materiallardan istifadə olunduqda təsvirlər daha əlvan olur. Bunun üçün isə rəngləri nazik təbəqə ilə çəkmək lazımdır. Belə quaş rəngləri suya davamlı olmurlar.

Bu səbəbdən də həmin rənglərdən yalnız otağın daxilində olan tərtibat işlərində istifadə olunması məsləhət bilinir. Quaş rənginin akvarel (sulu boya) rəngindən fərqləndirən əsas xüsusiyyət ondanibarətdir ki, digər yapışqanlı rənglərdə olan şəffaflıq xüsusiyyətinə malik deyildir. Quaş rəngi suda çox asanlıqla həll olunur, səthi yaxşı örtə bilir. Qrafik və dekorativ tərtibat işlərində xüsusi əhəmiyyətə malikdir, bunu sulu boya vasitəsi ilə etmək çox çətindir, bəzi hallarda isə mümkünsüzdür.

Quaş rəngləri ilə işləməyin çətinlikləri ondan ibarətdir ki, onun tərkibində olan ağ (belil) rəngi böyük miqdardadır. Buna görə də işlənən işi həddindən artiq işıqlanmaya məruz qoyur.

Məhz buna görədə quaş rəngləri ilə işləyən rəssamlardan çox böyük təcrübə tələb olunur ki, lazım olan hər bir ton həddini qabaqcadan düzgün müəyyənləşdirə bilsin.

DOI:10.30546/gdu.2023.347-354





Quaş rəngləri ilə zərif ton keçidlərini verməkdən üçün, (məsələn insan bədəninin təsvir olunmasında) və formaların moderinləşdirilməsi üçün yüksək bacarıq və qabiliyyət tələb olunur.



Qısa müddətli etüdlərin işlənilməsi üçün (məsələn mənzərə təsvirləri) və ayrı –ayrı eskizlərin yerinə yetirilməsi prosesində mazoklardan (rəng ləkələri) istifadə olunması yerinə düşərdi.

DOI:10.30546/gdu.2023.347-354



Quaş rəngləri ilə işləyən Azərbaycan rəssamlarından T.Salahov mənzərə əsərləri, M.Abdullayevin Nizami Gəncəvinin əsərlərinə çəkdiyi bir çox illüstrasiyalar buna misal ola bilər.





Məşhur rəssamların əsərlərinə diqqət verdikdə müəyyən etmək olar ki, quaş rəngləri ilə işləməyin bir sıra müxtəlif üsulları mövcuddur

Rəngkarlığın yumşaq formada işlənilməsi qaydasında,quaş rənglərinin spesifik xüsusiyyətlərindən çox məharətlə istifadə etməyi bacaran bir çox Azərbaycan rəssamlarının əsərləri xüsusi ilə diqqəti cəlb edir.

Rəngkarlıqla məşğul olan bir çox rəssamlar, akvarel işlərində tez-tez ağ quaş rəngindən istifadə edirlər.

DOI:10.30546/gdu.2023.347-354

Əgər quaş rənglərinin saxlanılma müddəti üzun bir vaxt üçün nəzərdə tutularsa,bu zaman onun qurumasının qarşısını almaq məqsədi ilə onun üzərinə az miqdarda su və yaxud qliserin məhlulu əlavə etmək lazımdır.

***Ədəbiyyat***

8. Бесчатсов Николай Петрович «Светная графика» Учебн. Пособие для студентов вузов. Москва. Гуманитар изд. Центр ВЛАДОС 2014. 176 стр.
9. Билл Мартин «Правила рисования» Минск. Попурин. 2014. 144 стр.
10. И.Головенко. «Техника рисунка» Москва.Эксимо. 2014. 40 стр
11. Питер Грей. «Рисуем пейзажи». Москва. Эксимо. 2015. 48 стр
12. И.А.Сергеевой., А.Й.Бороновиской.«Лучшие уроки. Светы»Москва.АСТ, 2015, 80 с.

## ТЕХНОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ВОДНОЙ КРАСКИ (АКВАРЕЛЬ) И КРАСКИ ГУАШИ

***Гусейнов Акиф Алирза оглы, Казимова Сарийя Ейвазовна***

***Резюме***

Главное достоинство акварели в том, что с ее помощью можно передать чистоту, прозрачность и яркость цвета.

При нанесении краски на бумагу внешний вид бумаги, а при нанесении краски на краску - появление нижележащей краски, придающей цвету оттенки, усиливающей цвет перекрашиванием, является характерной характеристикой только акварели, это невозможно в других видах живописи.

Многие художники, занимающиеся живописью, используя краски гуаши, могут добиться интересных этюдов (натюрморты, портреты, пейзажи). В учебно-оформительской работе мы часто сталкиваемся с широким применением гуашевых красок.

## TECHNOLOGICAL CHARACTERISTICS OF WATER PAINT (WATERCOLORS) AND GOUACHE PAINT

***Huseynov Akif Alirza, Kazimova Sariya Eyvaz***

***Summary***

The main advantage of watercolor is that it can be used to convey the purity, transparency and brightness of color.

When paint is applied to paper, the appearance of paper, and when paint is applied to paint, the appearance of an underlying paint that gives color shades, enhances color by repainting, is a characteristic characteristic only of watercolor, this is not possible in other types of painting.

Many artists who paint using gouache paints can achieve interesting sketches (still lifes, portraits, landscapes). In educational and design work, we often encounter the widespread use of gouache paints.

***Rəyçi: Allahverdiyeva Raziyyə***
***Təsviri incəsənət kafedrasının 14 iyun 2023-cü il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi 22 iyun 2023-cü il***